# MİRZƏ TÜRK ƏLƏKBƏR SABİR YARADICILIĞINDA YENİ HƏYATA ÇAĞIRIŞ

ULUSLARARASI TÜRK DÜNYASI ARAŞTIRMALARI DERGİSİ
INTERNATİONAL JOURNAL OF TURKISH WORLD STUDIES
CİLT 5 / SAYI 3 / TEMMUZ 2022

**Sorumlu Yazar**
**Corresponding Author**

Aida BABUTCU

Doç. Dr., Erciyes Üniversitesi, Edebiyat Fakültesi, Türk Dili ve Edebiyatı Bölümü, Çağdaş Türk Lehçeleri ve Edebiyatları ABD.

aidababutcu@erciyes.edu.tr

**Gönderim Tarihi**
**Recieved**
29.06.2022

**Kabul Tarihi**
**Accepted**
08.07.2022

**Atıf**
BABUTCU, Aida (2022). "Mirzə Türk Ələkbər Sabir Yaradıcılığında Yeni Həyata Çağırış", *Uluslararası Türk Dünyası Araştırmaları Dergisi,* (5/3), 1-10.

ARAŞTIRMA MAKALESİ
RESEARCH ARTİCLE

## Xülasə

Mirzə Ələkbər Sabir (1862-1911) Azərbaycan ədəbiyyatı tarixində üslub sadəliyi, mövzu rəngarəngliyi, forma müxtəlifliyi cəhətdən xüsusilə seçilən bir şair kimi şöhrət qazanmışdır. Çoxəsrlik ənənələri olan satirik şeirimizin ən parlaq səhifələrini, xalqımızın ruhunu Sabir yaradıcılığında oxuyub tanıya bilərik. Ədəbiyyatımızda süjetli satiranın ilk örnəklərini yaradan Sabir sadəcə satiranı davam etdirməmiş, janrın xüsusiyyətlərinin onun zəmanəsində xalqının mental keyfiyyətlərini, mənəvi-əxlaqi dəyərlərini ifadə etmək baxımından da nə qədər uyğun bədii vasitə olduğunu əsərləriylə sübut etmişdir. İlk şeirlərini klassik ənənələr əsasında qələmə alsa da, M.Ə.Sabir ədəbi fəaliyyəti dövründə dini mərsiyələr, lirik şeirlər, felyetonlar, məqalələr yazmış, tərcüməçiliklə də məşğul olmuşdur. Milli satirik şeirimizə taziyanə, qırmanc, satirik marş, bəhri-təvil, sual-cavab janrlarını gətirən böyük şairimiz üçün gülüşün və kinayənin insan psixologiyasındakı rolu - islahedici keyfiyyəti başlıca bədii silah idi. Türk-müsəlman dünyasında milli geriliyə səbəb olan hər şey Sabir qələmində qamçılanmışdır. Yaradıcılığı boyu yeni mövzular axtarıb tapmağa çalışmış Sabir həyatın müxtəlif sahələrinə nüfuz etmiş, təkrardan qaçmış, humanizmin, demokratik ideyaların, milli dirçəlişin fədakar carçılarından olmuşdur.

Böyük şair cəhalət dünyasında səadət günəşi doğacağına və bu günəşin ziyasından qaranlıqlar aləminin işıqlanıb nura boyanacağına inanırdı.

Məqaləmizdə böyük Azərbaycan şairinin əsərlərində diqqəti cəlb edən yeni həyata çağırış ruhlu mövzular - məktəb, tərbiyə, ailə məsələləri, milli qürur və qeyrət məsələlərindən bəhs olunacaqdır.

**Açar sözlər:** Sabir, üslub, mental, felyeton, islahedici, demokratik, cəhalət

## CALL FOR A NEW LİFE İN THE CREATIVITY OF MİRZA ALAKBAR SABIR

### Abstract

Mirza Alakbar Sabir (1862-1911) became famous in the history of Azerbaijani literature as a poet who was especially distinguished in terms of simplicity of style, variety of themes, variety of forms. We can read and recognize the brightest pages of our satirical poetry, which has a centuries-old tradition, and the spirit of our people in Sabir's work. Sabir, who created the first examples of plot satire in our literature, did not just continue satire, he also proved with his works that the features of the genre were an appropriate artistic means to express the mental qualities and moral values of the people of his time. Although he wrote his first poems on the basis of classical traditions, during his literary activity M.A.Sabir wrote religious laments, lyrical poems, columns, articles and was engaged in translation. For our great poet, who brought to our national satirical poems the genres of condolence, whipping, satirical march, bahri-tavil, question and answer, the role of laughter and irony in human psychology - the corrective quality was the main artistic weapon. Everything that caused national backwardness in the Turkish-Muslim world was whipped by Sabir poetry. Throughout his creativity, Sabir tried to find new themes, penetrated into various spheres of life, avoided repetition, and was a selfless preacher of humanism, democratic ideas, and national revival. The great poet believed that the sun of happiness would rise in the world of ignorance and that the light of this sun would illuminate the world of darkness.

In our article, the works of the great Azerbaijani poet will focus on topics that call for a new life - school, education, family issues, issues of national pride and zeal.

**Key Words:** Sabir, style, mental, columns, corrective quality, democratic, ignorance.

## Кіріспе



Mirzə Ələkbər Sabir Azərbaycan ədəbiyyatı tarixində üslub sadəliyi, mövzu rəngarəngliyi, forma müxtəlifliyi cəhətdən xüsusilə seçilən bir şair kimi şöhrət qazanmışdır. Yaradıcılığı boyu daim yeni mövzular axtarıb tapmağa çalışmış, həyatın müxtəlif sahələrinə nüfuz etmiş, təkrardan qaçmışdır. Şair cəmiyyəti narahat edən ən mühüm problemləri əsərlərinə əsas mövzu seçərkən çalışırdı ki, bu problemləri yeni ifadə tərzi ilə xalqa çatdırsın. Sabir insan mənəviyyatına mənfi və ya müsbət təsir göstərən kinayə, ironiyanı satiralarının canı, özəyi hesab edirdi. Bəzi ciddi səpgidə yazılmış şeirlərini istisna saysaq, əsərlərinin əksəriyyəti ironik ruhda yazılmışdır. Sabirşünasların da qeyd etdiyi kimi, şair danışıq dili ilə kitab dili arasındakı fərqi tamamilə aradan götürmüşdür. Məhz bu səbəbdəndir ki, satiraları hamımızın anlayacağı qədər canlı, sadə və axıcıdır. Bu mənada, Sabir xəlqi sənətkardır. M.Ə.Sabir lirik-aşiqanə qəzəl janrından daha çox ictimai məzmunlu qəzəl yaradıcılığına üstünlük vermişdir. Təbii olaraq, ədalətsiz bir cəmiyyətdə yaşayan şairi, həqiqi şairi ilk növbədə vətənin ictimai-mədəni dərdləri düşündürməlidir.

Sabir satiralarının gücü və əhəmiyyəti onda idi ki, burada gələcəyə güclü çağırış, xalqın sabahkı azad, xoşbəxt həyatına sarsılmaz bir inam əks olunurdu. Sabir inanmasaydı, yaza bilməzdi. Böyük şair cəhalət dünyasında səadət günəşi doğacağına və bu günəşin ziyasından qaranlıqlar aləminin işıqlanıb nura boyanacağına inanırdı. Məhz bu inamdan doğan ümid Sabiri daha da ruhlandırır, yeni-yeni ictimai motivli əsərlər yazmağa sövq edirdi. Əsərlərində əsas mövzu yenə də insan idi; əzilən insan, təhqir olunan insan, mənliyini satan insan, üsyan edən insan, özünü tanıyan insan və gələcəyə ümidlə baxan insan. Əlbəttə, Sabir bu insana bəzən acı-acı gülür, bəzən halına acıyır,

bəzən də onu töhmətləndirir. Ümumiyyətlə, şair müxtəlif mənfi tiplərə müxtəlif mənfi münasibətlər bəsləyir, onları tənqid edirdi. Bütün bunlardan məqsəd, nadanlıq və cəhalətin, geriliyin qurbanı olan adamları yeni həyata səsləmək, onlarda gələcəyə inam oyatmaq, həyata açıq gözlə baxmaqlarını təmin etməkdir. Cəsarətlə deyə bilərik ki, Sabir bu məqsədə nail olmuşdur. Xalqın öz şairinə - milli şairinə, vətəndaş şairinə olan tükənməz məhəbbəti buna sadə sübutdur.

Yeni həyata çağırış:

Sabir yeni həyata çağırış ruhlu əsərlərində məktəb, tərbiyə, ailə məsələləri, mənəvi özünüdərk, milli qürur və qeyrət, mədəni-texniki tərəqqiyə dəvət məsələlərindən bəhs edir. Sabir əksər satiralarında insanları öz vətənini sevməyə, onun dərdləri ilə maraqlanmağa, vətənin dar günündə onu müdafiə etməyə, ümumiyyətlə, həqiqi vətəndaş olmağa çağırır. "Vətənpərvər şair Azərbaycan gənclərinin ana dilində təhsil ala bilməməsinin səbəbləri üzərində də ətraflı dayanmış, "millətdən, milliyyətdən bixəbər olan" ziyalını kəskin tənqid atəşinə tutaraq bunun faciəli bir hal olduğunu təəssüflə xatırlatmışdır. Müəllif bu barədə deyir: heyf ki, məəttəəssüf bunu söyləyə bilərəm ki, millətimizin avam cavanları çoxdur. Millətdən, milliyyətdən bixəbər olanları daha çoxdur. Nə təəssüflü bir hal! Bundan daha böyük təəssüf olunacaq burasıdır ki, oxumuş cavanlarımız dəxi əksəriyyət ilə ana dilindən, əqaidi-diniyyətlərindən lazımınca xəbərdar ola bilməyiblər. Əcəba, bu təqsir kimdədir, oxumuşlarımızdamı? Xeyr! Xeyr! Təqsir bizim məktəbsizliyimizdədir, üsuli-cədid üzrə təşkil olunmuş müntəzəm məktəblərimiz olmamasındadır..." (Məmmədov, 1962:26) Göründüyü kimi, xalqın rifaha qovuşmasında elmin, məktəbin nə qədər böyük rolu olduğunu duyur və hamını bu yola dəvət edirdi. "Məktəbə tərğib" şeiri bu mənada diqqətəlayiqdir. Şair bütün uşaqları, cavanları elm oxumağa, savadlanmağa çağırır, "məktəbdə var şərafət, dəftərdə var lətafət" deyə onları məktəbə həvəsləndirir:

Mənim bağım, baharım!
Fikri ziyalı oğlum!
Məktəb zamanı gəldi,
Dur, ey vəfalı oğlum!
Ey gözüm, ey canım,
Get məktəbə, cavanım.

Nəsihət al, nəsihət
Qıl kəsbi-elmə qeyrət!
Elmsizlik bəlası
Müşkül olur, həqiqət! (Sabir, 1962: 368)

Sabir elmsizliyi bir bəla kimi qiymətləndirir və "elmin yolunda" can verməyi tövsiyyə edir. "Məktəb şagirdlərinə töhfə"şeiri də Sabiri bir maarifpərvər ziyalı kimi gözümüzdə ucaldır. Şair göstərir ki, "hər kim qeyrətə, zəhmətə alışar", gecə-gündüz rahatlıq bilmədən çalışarsa, səadətə qovuşar. "Kim ki tənbəlliyə məhəbbət edər, daim əyləncələrlə ülfət edərsə", o kəs vaxtını cəhalətdə keçirər, ömrü səfalətdə çürüyər. Buna görə də, şair üzünü məktəblilərə tutaraq deyir:

Sizdədir millətin ümidi, gözü –
hal ilə söyləyir sizə bu sözü,
Dinləyin yanöılı sədalərini!..
Eşidin atəşin nəvalərini!..
Oxuyun, millətin nicatı olun!
Ta əbəd baisi – həyatı olun! (Sabir, 1962: 350)

Sabir gəncləri sabahkı günün qurucuları kimi görməyi arzulayır. Elmin vətənə, cəmiyyətə nə qədər lazımlı olduğunu gənclərə başa salır. Şair göstərir ki, millətin nüfuzu elmli adamlarla ölçülür, hər bir millət savadlı xadimlərilə tanınır və şöhrət qazanır. Qafil yaşamaqdansa, ölmək karlıdır. Taziyanələrindən birində şair belə yazır:

Qafil yaşamaqdansa gözəl kardır ölmək,
Hərçənd ki qəflətdə dəxi ardır ölmək.
Zənciri-cəhalətdə bu alçaq yaşayışdan,
Cahil, sənə dar üzrə səzavardır ölmək! (Sabir, 1962: 276)

Böyük şairin "Analar bəzəyi" şeiri də məktəb, elm, tərbiyə mövzusunda yazılmış ibrətamiz şeirlərindəndir. Sabir anaların bəzəyini onda görür ki, onlar ədəbli, cəmiyyətə xeyir verə bilən, təhsilli övladlar böyütsünlər. Bəzək-düzək, cəvahirat – bunlar həyatın ziynəti deyil, həyatda ziynət elmin gövhəridir ki, hamı ona yiyələnməkdə tələsməlidir. O ana ki, övladlarına yaxşı tərbiyə verə bilmir, onu həqiqi valideyn saymaq olmaz, çünki tərbiyə hər şeyin başlanğıcıdır. Sabirin "Tərbiyə" adlı şeiri də bu baxımdan diqqətəlayiqdir: şair insan cəmiyyətində tərbiyənin əhəmiyyətindən bəhs edərkən, elmlə tərbiyəni vəhdətdə götürür:

Ümmətin rəhnüması tərbiyədir,

Millətin pişvazı tərbiyədir,
Tərbiyətlə keçir ümuri-cahan,
Hər işin ibtidası tərbiyədir.
Tərbiyət elmsiz deyil məqbul
Ki, onun müqtəzası tərbiyədir. (Sabir, 1962: 322)

Vətənin sabahkı gününün ziyası olacaq savadlı, tərbiyəli, yüksək əxlaqlı adamların yetişməsində əməli və nəsihətləri ilə valideyn qeyrətinin mühüm ölçü olduğunu şair tez-tez misralarında vurğulayır. Əlbəttə, təlim-tərbiyə mövzusunda köhnə və yeni qarşılaşdırması zəminində Sabir qadının ailədə və cəmiyyətdə mövqeyi məsələsini də ədəbiyyata mövzu etmiş, Azərbaycan qadınının gələcək yolunu milli müstəvidə təkrar gözdən keçirərək sanki təlimatlar vermişdi. Sabir Azərbaycan qadınını gələcək sağlam mənəviyyatlı, demokratik ruhlu nəsillərin təminatçısı kimi görürdü, əsərlərində qız uşaqlarının oxudulmasını vacib milli məsələ kimi qaldırırdı. İslam məzacı qadın hüquqlarını məhdudlaşdırmamalı, hər cür maarif və ictimaiyyət işinə qadınlar da cəlb edilməlidir. Sabir fanatik dindarların hücumlarından çəkinməyərək diqqəti qadın problemlərinə yönləndirə bilir, qızların zorla evləndirilməsini, kişilərin onlarla qul kimi rəftar etməsini tənqid edir, qadınlara kişilərlə bərabər təhsil verməyin zəruriliyini diqqətə çatdırırdı. Bütün bu tənqidlər çox keçmədi ki, bəhrəsini verdi, 1918-ci ildə AXC qurulduqdan sonra türk-müsəlman qadını haqqı olan siyasi-mədəni hüquqlara qovuşdu.

M.Ə.Sabir yaradıcılığında əsas yer tutan mövzulardan biri də Azərbaycan xalqının bötövlük arzularına tərcüman olan Güney Azərbaycan mövzusudur. Gülüstan və Türkmənçay sözləşmələrinin bir xalqın taleyində ləkələyici olduğunu dərk edən Sabir kimi ziyalılar bu zərbəyə qarşı xalqın birlik məfkurəsi çərçivəsində mövzuları gündəmə gətirirdilər. Bu isə sadəcə yeni həyata çağırış deyil, Azərbaycan xalqının müqəddəratı üçün gələcək nəsillərə vəzifə olaraq yüklənmiş ismarıc idi. Güneyli bacı-qardaşlarının dözülməz həyatı Sabiri bir insan, bir millət təəssübkeşi vətəndaş kimi narahat edirdi. “Şairin İran məşrutə hərəkatına həsr etdiyi əsərlər qanlı şahlıq rejimini, üsyankar xalqa zidd cəbhəni təmsil edənləri qamçılamaq baxımından, inqilabçıları azadlıq vuruşlarına ruhlandırmaq baxımından görünməmiş gücə, kəsərə malik idi.

Bu əsərlər İranı yadellilərə satmaq istəyən, xalq inqilabı selində boğulmaqdan qorxub əcnəbi ölkələrə qaçan əliqanlı Məmdəli şahı lağa qoyub, ifşa edib, nüfuzdan salırdı... "Məmdəli", "mə`dəli", "yetim Məmdəli", "boynu yoğun" bu şeirlərdə irticanı təmsil edən ümumi mənfi qəhrəman idi." (Hüseynov, 1986: 149)

"Satıram", "Şurə gəlib şad olun iranlılar", "İstiqbal bizimdir", "İran niyə viran oldu", "Yetim Məmdəli", "Mirhaşım", "İran özümündür" və s. satiraları mövzu və sənətkarlıq baxımından çox dəyərli sənət nümunələri olmaqla yanaşı, fars şovinizminin də bölgədəki mövqeyini ortaya qoyan maraqlı nümunələrdir. Güneyli soydaşlarımızın "gününü göy əsgiyə bükən, məkanlarını viran edən, bitli libas geyinmələrinə səbəb olan, qanlarını zəli kimi soran, onları diyarbədiyar əsir edən, cümlə İranın başına əngəl olan" məmdəli şahlar ümumən "yadelli düşmən" vəsfində Sabirin öldürücü kinayəsindən qurtula bilmir:

İranlı deyil, cümlə bilir Məmdəliyəm mən,
Gürkani-cəfavü sitəmin cəngəliyəm mən,
İranlıların başlarının əngəliyəm mən,
Sorram, içərəm qanlarını, çün zəliyəm mən,
Laşə özümün, ət özümün, qan özümündür,
Şövkət özümün, fəxr özümün, şan özümündür! (Sabir, 1962: 125)

Ucsuz-bucaqsız Güney torpağını bir əşya kimi mənimsəyib, başına olmazın bəla və müsibətlərini açan qəddar şah Məmdəli ilə 1937-ci ildə Quzey torpaqlarında səbəbli-səbəbsiz təhdidlərlə kütləvi güllələnmələrə bais olan cani Stalinin nə fərqi var? O halda, bütöv vətənimizin hər sahədəki nemətlərini hərraca qoyan belə "yadelli düşmən"lər Sabir qələminin qamçılarına layiqdir və Sabir satiraları bütün dövrlər üçün aktualdır.

Sabir Güney Azərbaycan mövzusunda yazdığı satiralarında xalqını sevməyən, torpağının nazü nemətlərini yadellilərin ətəyinə tökən şahın özbaşınalıqlarını, mürtəce xadimləri ifşa etməklə qalmamış, bir yandan azadlıq eşqilə yaşayan soydaşlarının hürriyət arzularını ruhlandıran, onları istiqbala səsləyən şeirlər də yazmışdır:

Əhli-İranda, pa oğlan, yenə himmət görünür!

Yenə hər guşədə bir tazə cəmaət görünür!
Baxasan hər tərəfə - cünbüşü qeyrət görünür!
Bütün əsbabi-tərəqqidən əlamət görünür!
Əhsənüllah ki, dəxi bizdə səadət görünür! (Sabir, 1962: 169)

Vətən yolunda canını əsirgəməyən mərd insanlar Sabir əsərlərinin bəzəyi idi. Şair bir silsilə şeirlərində Səttərxan hərəkatını alqışlamış, xalqın sərdari-milli adlandırdığı bu xalq qəhrəmanına tükənməz məhəbbətini "Səttərxan" şeirində ifadə etmişdir. "O, Təbriz torpağını yağıların qara örtüyünə döndərən, bu torpağı azadlıq yolunda tökülən qızıl qanla boyayan, istibdadı zəlil edən, vətənin və millətin namusunu qoruyan, özünü qurtuluş pərvanəsi tək oda-közə vuran Səttərxanı qorxmaz ər, əyilməz igid bir qəhrəman kimi təsvir və tərənnüm edir. Dönməz, döyüşkən təbrizlilərin adına afərinlər yağdırır. Milli iftixar duyğuları təlqin etməklə şeirin bütün bəndlərini "Afərinim himməti-valayi-Səttərxanədir" misrası və fikri ilə bəzəyir." (Hüseynov, 1982: 151) El qəhrəmanı Səttərxana Sabirin məhəbbəti təbii idi, çünki şair özü də mübariz bir şəxsiyyət idi, o da Səttərxan kimi öz vətənini sevir, onun istiqbalı uğrunda vuruşur, bu şərəfli yolda bütün bədii imkanlarından istifadə edirdi:

Afərin, Təbriziyan, etdiz əcəb əhdə vəfa!
Dostü düşmən əl çalıb eylər sizə səd mərhəba!
Şox yaşa dövlətli Səttərxan əfəndim, çox yaşa!
Cənnəti-ə`ladə peyğəmbər sizə eylər dua,
Çün bu xidmətlər bütün İslamədir, insanədir...
Afərinim himməti-valayi-Səttərxanədir! (Sabir, 1962: 315).

Böyük ədib Səttərxan hərəkatını alqışlamaqla milləti yeni həyata, birliyi naminə mübarizəyə çağırır, sanki yatmışları oyanmağa, inqilab etməyə, nəyin bahasına olursa olsun istiqlaliyyətini qazanmağa səsləyirdi. Sabir vətəndaşlıq qeyrətini hər şeydən üstün tutur, göstərirdi ki, ancaq qeyrətli vətən oğulları xalqı azad və işıqlı yola çıxara bilər. Belə də oldu: bu qeyrətli oğullar 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini quraraq bütün Şərqin ilk demokratik cümhuriyyətini türk tarixinə ərməğan etdi. Sabir o günləri görmədi, ancaq xalqının istiqlaliyyət ruhunda yetişməsində böyük əmək sərf etdi.

“Gerçəkliyə, bilavasitə varlığın özünə söykənmək, həqiqəti söylərkən yorulub usanmamaq Sabir realizmini şərtləndirən, seçdirən və sevdirən amillərdəndir.” (Hüseynov, 1986: 152) Sabiri xalqına sevdirən də onun həqiqətpərəstliyi, uzaqgörənliyi idi. Doğrudur, zəmanəsində Sabiri qiymətləndirməyən cılız dünyagörüşlü adamlar onu haqsız olaraq töhmətləndirmişlər, lakin bütün bunlar mübariz şairin vüqarını sarsıda bilmədi. Şair, demək olar ki, ömrünün sonuna qədər xalqına xidmət etdi. Yalnız xalq üçün yaşayan-yaradan şair ədəbiyyat tariximiz üçün əvəzsiz bir incidir. Sənətkar şəxsiyyəti və mövqeyinə görə Sabiri Türk xalqları ədəbiyyatı tarixində Ziya Paşa, Abay Kunanbayoğlu ilə müqayisə edə bilərik.

## Nəticə

Mirzə Ələkbər Sabir yaradıcılığında daim yenilikçi şair kimi çıxış etmişdir. Bu yenilikçilik Sabir yaradıcılığının təkcə mövzu və məzmun mündəricəsində deyil, həmçinin şeir şəkillərində, poetik üslubda, sənətkarlıq xüsusiyyətlərində özünü göstərir. Sabir klassik şeir şəkillərini yeni məzmun qəlibləri ilə məharətlə elə cilalamışdı ki, məzmunla şeir şəklinin vahid ahəngi pozulmamışdı. “Şairəm, əsrimin ayinəsiyəm, məndə hər kəs görür öz qaş-gözünü” - deyən şair yeni həyata yeni bədii qəliblərdə ifadə etdiyi mətləblərlə çağırış edirdi. Sabir qəzəl ədəbiyyatını Seyid Əzim Şirvani ilə yekunlaşdırmış, yeni ədəbi məktəbin – realist demokratik şeirin əsasını qoymuşdur. Cəhalət aləminin kütləşdirdiyi şüurları hərəkətə gətirmək üçün sələfi M.F.Axundov kimi istehzalı gülüşdən istifadə edən şairimiz Azərbaycanın fikir sabahı üçün milli-demokratik zəmin hazırlamışdır. Sabir yaşadığı dövrü dərindən müşahidə edib hakim dairələrdən çəkinməyərək həqiqətən də tənqid etmişdir: satiralarının hər biri əslində bir müşahidə mətnidir. Sabir əsərlərində həm xalqın hər təbəqəsinin inikası, həm də vətəndaş bir şairin bu gün də aktuallığını qoruyan milli mövqeyi yaşayır.

## İstifadə Olunmuş Ədəbiyyat

HÜSEYNOV F. (1986). *Molla Nəsrəddin və mollanəsrəddinçilər,* Bakı: Yazıçı nəşriyyatı.

XƏNDAN C. (1962). *Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri*, Bakı: Azərnəşr.

MƏMMƏDOV M. (1962). *Şair – vətəndaş,* Bakı: Azərbaycan SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyət.

MİRƏHMƏDOV Ə. (1983). *Azərbaycan ədəbiyyatına dair tədqiqlər*, Bakı: Maarif nəşriyyatı.

SABİR M. Ə. (1962). *Hophopnamə*, Bakı: Azərnəşr.